

**Qəzetimizin bu sayında bölgə teatrlarına bir nəzər salmaq istədik. N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının ötən ildə gördüyü yaradıcılıq işləri ilə maraqlandıq. Teatrın direktoru Tofiq Heydərov da suallarımızı səbrlə cavablandırıb, ötən ili onların yaradıcılığında məhsuldar bir il kimi qiymətləndirdi.**

# Tofiq Heydərov: "2016-cı il Lənkəran Teatrı üçün uğurlu il oldu"

**- Tofiq müəllim, geridə qoyduğumuz mövsümü Lənkəran teatrı üçün məhsuldar bir il hesab etmək olarmı?**

- Əlbəttə. 2016-cı ilin yanvar ayında İranda keçirilən beynəlxalq Fəcr festivalında iştirak etdik. İran Mədəniyyət Nazirliyinin Teatr Baş İdarəsi ilə bağlanmış müqavilə əsasında İrandan teatrımıza rejissor dəvət etdik. Orada sayılıb-seçilən rejissorlardan olan Xeyrullah Təğiyənipur bizim teatrda tamaşa hazırladı. O burada İran yazıçısı Bəhram Bizayinin "İlan Sultan" əsərini səhnələşdirdi. Həmin tamaşa 34-cü beynəlxalq Fəcr Festivalı çərçivəsində Təbriz şəhərində iki dəfə, Məşhəddə də bir dəfə oynanıldı. Tamaşa festivalın "Ən yaxşı rejissor işi" nominasiyasına layiq görüldü.

2016-cı ilin mayında Bakı şəhərində hesabat xarakterli iki tamaşa ilə çıxış etdik. Tamaşalardan biri Eduarda De Flipponun "Ruhlar", digəri isə həmin "İlan Sultan" tamaşası oldu. Tamaşaları Mədəniyyət və Turizm naziri Əbülfəz Qarayev, nazir müavini Ədalət Vəliyev, teatr camiəsinin tanınmış nümayəndələri izlədilər. Hər iki tamaşamız paytaxtda fəaliyyət göstərən qəzetlərdə, internet saytlarında müzakirələrə səbəb oldu.

2016-cı ilin dekabr ayında İran İslam Respublikasının Rəşt şəhərinə 7 günlük qastrol səfərimiz oldu. Orada da "İlan Sultan" tamaşası ilə çıxış etdik. Səfər müddətində truppamız, həmçinin Ü.Hacıbəylinin "Olanlardan-keçənlərdən" tamaşası ilə Rəşt şəhərində keçirilən "Meydan tamaşaları" festivalına qatıldı. Festivalın açılış mərasimində Gilan vilayətinin mədəniyyət baş idarəsinin rəisi Fazili, Rəşt şəhərinin meri Sabit Qədəm və mədəniyyət nazirliyinin teatr baş idarəsinin nümayəndələri və teatr camiyəsinin sayılıb-seçilən simaları bizim tamaşanı izlədilər. Festivalın bağlanış mərasimi böyük təntənə ilə keçirildi. Orada İranın mədəniyyət nümayəndələri iştirak edirdi. Festivalda İranla Azərbaycan arasında mədəni teatr əlaqələrinin möhkəmləndirildiyi, mədəni əlaqələrin bu işdə böyük rol oynadığı qeyd olundu.

Cari ildə teatrımıza paytaxtdan və eləcə də İrandan fərqli baxış bucaqları olan rejissorlar dəvət etmişik. Gənc Tamaşaçılar Teatrının baş rejissoru, əməkdar incəsənət xadimi Bəhram Osmanov Əli Vəlioğlunun "Əsrlərin harayı" əsərinə quruluş verdi. Tamaşa çox uğurlu əsər kimi hazırda repertuarımızda yer alıb. Ötən il YUĞ teatrının baş rejissoru Gümrah Ömərlə də iş birliyimiz oldu. Nəticədə, 2016-cı ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sifarişi əsasında M.F.Axundzadənin "Hacı Qara" tamaşası hazırlandı.

Bundan əlavə, biz 2016-cı ildə məktəb yaşlı uşaqlar üçün də maraqlı tamaşalar hazırlamışıq. Andersonun "Qar kraliçası", Pərvin Nurəliyevayanın "Dəcəl keçi", əsərlərini hazırlamışıq. Həmin tamaşalar məktəblilərin tətil günlərində şagirdlər üçün oynanılıb.

**- Qeyd etdiniz ki, xarici ölkələrdən və paytaxtdan teatra rejissorlar dəvət olunur. Adətən kənardan gələn bir insanın quruluşuna, dəsti-xəttinə uyğunlaşmaq çətin olur. Bəs Lənkəran Teatrının aktyorları həmin rejissorların tamaşalarına adaptasiya ola bildilərmi?**

- Həmin rejissorların Lənkəran Teatrına dəvət edilməsi teatrın yaradıcılıq həyatında önəmli bir hadisədir. Bizim yaradıcı kollektivə əlavə bir stimuldur. Yeni rejissorlarla işləmək aktyor heyətinin yaradıcılıq potensialının açılmasına böyük təkan verir. Teatra yeni bir yaradıcı insan gələndə aktyor heyəti maraqlı olur ki, görəsən o rejissor burada nə işlər görəcək. İlk baxışdan suallar çox olur. İrandan gələn rejissor 34 yaşında gənc insan idi. Bizim teatrda kifayət qədər sözünü demiş orta yaşlı nəslin nümayəndələri də var. Düşünürdük ki, o gəlib bizim teatrda nə edəcək? Nəticədə çox uğurlu bir iş ərsəyə gəldi. Həmin rejissor aktyorlarla yaxşı işlədi. Bu, aktyorlar üçün yeni bir işdir. Adaptasiya olmaq çətin olsa da, nəticəsi gözəl oldu. Bəhram Osmanovla Gümrah Ömər bizim teatrda zamanında tamaşalar qurublar. Ona görə də bu rejissorlarla işləmək o qədər də çətin deyil. Aktyorlar çox həssas olurlar. Rejissorlar da gərək yeni ideya və fikirləri aktyora aşılaya bilsin, onları inandıra bilsin.

**- Rejissor mübadiləsindən söhbət düşmüşkən, bəs aktyor mübadiləsi barədə nələr düşünürsünüz?**

- Rejissorlar gəlib Lənkəran Teatrında tamaşa hazırlayır. Həmin tamaşa 15 tamaşadan sonra öz sərmayəsini çıxarır. Ancaq aktyor mübadiləsi bir qədər fərqlidir. Bu sahədə işlər aparılır. Bu il belə bir mübadilə nəzərdə tutulub. Ümid edirəm ki, bu işlər öz nəticəsini verəcək.

**- 2017-ci ildə hansı tamaşaları hazırlamağı planlaşdırırsınız?**

- 2017-ci ilin repertuarına daxil olan əsərlər rəngarəngdir. 2016-cı ildə repertuar planına uyğun olaraq Rövşən Ağayevin "Bir gecənin nağılı", Jan Botis Molyerin "Jorj Danden", Əbdürrəhim bəy Haqverdiyevin "Xotdanın cəhənnəm məktubları", Mehman Musabəylinin "Toy səyahəti" əsərləri tamaşaya qoyulacaq. Hazırda Rövşən Ağayevin "Bir gecənin nağılı" əsəri üzərində işlər gedir. Tamaşanın quruluşçu rejissoru əməkdar artist Adil Zeynalovdur.

**- 2017-ci ildə qarşınıza qoyduğunuz məqsəd nədir?**

- Ümid edirik ki, 2017-ci ildə uğurlarımızın sayı daha çox olacaq. Qeyd edim ki, iyunda Qazaxıstanın Akta şəhərinə qastrol səfərimiz gözlənilir. Hazırda müzakirələr gedir. Bundan başqa, 2017-ci ildə Bakı şəhərinə hesabat xarakterli qastrol səfərimiz planlaşdırılır. "Hacı Qara" və "Əsrlərin harayı" tamaşaları ilə paytaxt tamaşaçıları qarşısına çıxacağıq. Bu səfər may ayına nəzərdə tutulub. Lənkəran Teatrı yaradıcı potensialını paytaxt tamaşaçılarına təqdim edəcək. Əsas məsələ odur ki, Lənkəran Teatrının səsi İrandan, Qazaxıstandan, Bakıdan gəlir. Mətbuat nümayəndələri, bizim teatrımızla maraqlanır, uğurlarımız işıqlandırılır. Bunun özü Lənkəran Teatrına həm dəstəkdir, həm də qarşımıza böyük məsuliyyət qoyur. Əgər mətbuatda işıqlanırıqsa, deməli ki, çalışırıq. İstəyirik ki, teatrımız ayaqda qalsın, respublika teatrları arasında öz sözünü deyən teatr olsun.

Lənkəran Teatrı böyük ənənəsi olan teatrdır. Biz də çalışırıq ki, bu ənənəni davam etdirək. Onun üzərinə daha yeni tarixi səhifələr əlavə edək. Bu yöndə də uğurlu addımlar atılmaqdadır.

**- ATV telekanalında yayımlanan "Günəşim ol" serialında Lənkəran Teatrının yaradıcı kollektivinin üzvləri də iştirak edir. Teatr direktoru olaraq sizin buna münasibətiniz necədir?**

- Telekanallarımızda nümayiş olunan seriallarda teatrımızın aktyorlarının oynaması bizim yalnız xeyrimizədir. Aktyorlarımızın siması daha da tanınır. Hər bir aktyor da istəyir ki, filmlərdə, seriallarda çəkilsin. Bu onların haqqıdır. Seriallar və filmlər aktyorların yaradıcılıq potensialına böyük təsir göstərir. Teatr olaraq biz də ma-



raqlıyıq ki, aktyorlarımız filmlərdə, seriallarda çəkilsinlər. Biz də onlar üçün hər cür şərait yaradırıq. Onların seriallara çəkilməsi müsbət haldır. Biz bunun əleyhinə deyilik. Ancaq bizim də işimiz Lənkəran Teatrına xidmət etməkdir. Aktyorlarımız da bu məsuliyyəti öz üzərlərində dərk edirlər. Bu bizim teatrın yetirmələri üçün fəxrdir. Biz həmin aktyorları Lənkəran Teatrında yetişdirmişik. Ümid edirik ki, bu, həm Lənkəran Teatrı üçün, həm də televiziyalar üçün önəm kəsb edir. Həmin serialda bizim teatrın 10 aktyoru iştirak edir. Onlar Lənkəran Teatrının yetirmələridirlər. Teatrımızda fəaliyyət göstərən studiyada peşəkar aktyorlardan dərs alıblar. Nəticədə teatrda maraqlı obrazları ilə yaddaşlara həkk olunurlar və seriallar vasitəsi ilə tanınırlar.

**- Bölgə teatrına tamaşaçıların marağı hansı səviyyədədir?**

- Çoxları narazılıq edir ki, teatra tamaşaçı gəlmir, həvəs yoxdur. Biz qarşımıza məqsəd qoymalıyıq ki, tamaşaçıya nə verməliyik ki, tamaşaçı teatra gəlsin. Gərək ilk olaraq teatrlar günahı özlərində axtarsınlar. Tamaşaçıların teatra gəlməməyində günah tamaşaçılarda deyil, bu işdə teatrı günahlandırıram. Bu gün internet, sosial şəbəkə o qədər inkişaf edib ki, insanların fikri yayınıb. Dünyanın hər yerindən asan şəkildə məlumat əldə edə bilirlər. Teatrlar qarşılarına məqsəd qoymalıdırlar ki, tamaşaçılara hansı məhsulu təqdim edək ki, tamaşaçı teatra gəlsin. Bu yöndə biz də mühüm işlər görürük. İlk növbədə öyrənməyə çalışırıq ki, tamaşaçının hansı tamaşaya daha böyük marağı var. Lənkəran tamaşaçılarından çox razıyıq. Onlar mütəmadi olaraq repertuarımızı izləyir və tamaşalarımıza baxırlar. Bu gün tamaşaçını günahlandırmaq düz deyil. Biz öz işimizdə dönüş yaratmalı və tamaşaçıların zövqünə uyğun tamaşalar hazırlamalıyıq. Tamaşaçılarla müəyyən təbliğat işləri aparırıq, onlarla aktyorların görüşünü keçiririk. Biz orta məktəblərdən şagirdləri teatra dəvət edir və beləliklə gələcəyin tamaşaçılarını yetişdiririk. Hər şey ilkdən başlayır.






■ Xəyalə Rəis
*teatrşünas*